# Azərbaycan-İran münasibətləri

Azərbaycanla İran arasında diplomatik münasibətlərin zəngin tarixi keçmişi vardır. İran və Azərbaycan xalqları islam aləminə mənsub olan xalqlardır. İki xalqın din, mədəniyyət, mənəvi dəyərlər baxımından yaxınlığı, eyni zamanda, ortaq tarixə malik olması dövlətlərarası əlaqələrin inkişafına müsbət dinamika verir.

1918-1920-ci illərdə mövcud olmuş Şərqdə ilk demokratik respublika – Azərbaycan Xalq Cümhuriyyəti dövründə bir sıra mürəkkəb problemlərə və ciddi maneələrə baxmayaraq, iki ölkə arasında diplomatik münasibətlərin qurulmasına nail olunmuşdu. 1918-ci il mayın 30-da Nazirlər Şurasının sədri Fətəli xan Xoyski İran Xarici İşlər Nazirliyinə Azərbaycan Xalq Cümhuriyyətinin yaranması barədə məlumat göndərdi. Xalq Cümhuriyyəti dövründə Bakıda İranın diplomatik nümayəndəliyi fəaliyyət göstərirdi. 1920-ci ilin aprelinədək Azərbaycanın İranda Adil xan Ziyadxanovun başçılığı ilə diplomatik nümayəndəliyi fəaliyyət göstərmişdir. 1920-ci il martın 20-də Azərbaycanla İran arasında əməkdaşlığın bütün sahələrini əhatə edən saziş və müqavilələr imzalanmışdı. Tərəflər arasında imzalanan dostluq müqaviləsinə əsasən, İran Azərbaycan Xalq Cümhuriyyətini de-yure tanımışdı. Qısa müddətdə Tehranda Azərbaycanın səfirliyi, Təbrizdə baş konsulluğu, Rəştdə konsulluğu, Ənzəlidə, Məşhəddə vitse-konsulluğu, Xoy və Əhərdə konsul-agentlikləri yaradılmışdı.

1920-ci ilin aprelində Azərbaycanın bolşevik Rusiyası tərəfindən işğalından sonra bir müddət siyasi-diplomatik münasibətlərin qırılmasına gətirib çıxarmışdı. SSRİ dönəmində Azərbaycan müstəqil xarici siyasət yürütmək imkanından məhrum olsa da, İranla münasibətlərdə müəyyən rol oynayırdı. 1922-ci ilin payızında Bakıda İran səlahiyyətli nümayəndəliyi fəaliyyət göstərirdi.

İkinci Dünya müharibəsi zamanı sovet qoşunları İran ərazisində yerləşdiyi illərdə Azərbaycanın siyasi və mədəni sahədə tanınmış şəxsiyyətləri ikitərəfli əlaqələrdə önəmli paya malik idi. Sonrakı dövrdə münasibətlər xeyli dərəcədə məhdudlaşsa da, SSRİ ilə İran arasında mədəni və elmi-ədəbi əlaqələrdə Azərbaycanın da özünəməxsus yeri olmuşdur. Xarici ölkələrin dövlət və siyasi xadimləri SSRİ-yə səfər edərkən Azərbaycana da gəlirdilər. Azərbaycana səfər edənlər arasında İranın dövlət xadimləri də olmuşdur. İran ilə sərhədyanı ticarət əlaqələri qurulmuşdu. 1968-ci ildə Bakıda İranın Baş Konsulluğu fəaliyyətə başlamışdı. Azərbaycan müstəqillik qazandıqdan sonra məhz həmin konsulluğun bazasında və binasında İran İslam Respublikasının ölkəmizdəki səfirliyi yaradıldı.

Azərbaycanla İran arasında birbaşa əlaqələrin yenidən qurulmasına SSRİ-nin süqutundan bir qədər əvvəl başlanılmışdı. Belə ki, 1989-cu ilin sonlarında – Azərbaycanda milli-azadlıq hərəkatının vüsət aldığı bir dövrdə iki ölkə arasında sərhədlər sökülmüş və sadə insanların qarşılıqlı gediş-gəlişi başlanmışdı. Bu, əslində, siyasi dairələrə xalqların yaxınlaşmaq və əməkdaşlıq etmək istəyini ifadə edən bir mesaj idi. Təsadüfi deyil ki, 1990-cı ildə, yəni hələ SSRİ-nin mövcud olduğu dövrdə İranın o zamankı Prezidenti Əli Əkbər Haşimi-Rəfsəncani Bakıya səfərə gəlmiş və ölkə rəhbərliyi ilə əməkdaşlığa dair müzakirələr aparmışdı.

1991-ci il oktyabrın 18-də Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra iki dövlət arasında diplomatik münasibətlər sürətlə inkişaf etməyə başladı. İran İslam Respublikası Azərbaycanın müstəqilliyini 25 dekabr 1991-ci ildə tanımışdır. 1992-ci ilin fevralında o vaxtkı Prezident Ayaz Mütəllibovun başçılığı ilə geniş tərkibli nümayəndə heyəti İslam İnqilabının ildönümü münasibətilə Tehranda səfərdə olmuşdu.

İki ölkə arasında diplomatik əlaqələr 12 mart 1992-ci ildə qurulmuşdur. Həmin vaxtdan İran İslam Respublikasının Azərbaycan Respublikasındakı səfirliyi fəaliyyətini davam etdirir, 1992-ci ilin dekabr

ayından isə Azərbaycan Respublikasının İran İslam Respublikasında səfirliyi fəaliyyətə başlamışdır. 1992-ci ilin dekabr ayından Naxçıvan MR-də İranın Baş Konsulluğu açılmışdır. 20 oktyabr 2004-cü ildən isə Azərbaycan Respublikasının Təbriz şəhərində Baş Konsulluğu fəaliyyət göstərir.

Ötən 30 il ərzində iki ölkə arasında münasibətlər heç də həmişə hamar səciyyə daşımasa da, hər iki dövlətin siyasi elitasında müştərək tarixi-mədəni irsə, ümumi mənafelərə istinadla, əlaqələrin mehriban qonşuluq və qarşılıqlı faydalı əməkdaşlıq çərçivəsində qurulması və inkişafına əsaslanan baxışlar üstünlük təşkil etmişdir. Azərbaycan Respublikası məhz İranla ən uzun sərhədə (765 kilometr) malikdir. Sərhədin o tayında isə on milyonlarla etnik azərbaycanlı yaşamaqdadır. Bu amillər münasibətləri normal məcrada saxlamağı hər iki ölkə üçün zəruri edir.

Ermənistanın Azərbaycana qarşı irəli sürdüyü ərazi iddiası nəticəsində 1990-cı ildən blokada şəraitinə düşmüş Naxçıvan Muxtar Respublikası iqtisadi cəhətdən ağır günlərini yaşayırdı. Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri Heydər Əliyevin sayəsində İranla iqtisadi, humanitar və ticarət sahəsində əlaqələrin qurulması muxtar respublikanın vəziyyətini qismən də olsa yüngülləşdirmişdi. 1991-ci ildə İranın Mərənd və Makunun fərmandarları, Şərqi Azərbaycan ostandarı Naxçıvana səfər etmiş, iqtisadi-ticari əlaqələrin qurulmasına köməklik göstərmişdilər. 1992-ci ildə İran İslam Respublikasının Azərbaycandakı səfiri Əli Əsgər Nəhavandian Naxçıvana səfər etmiş, Naxçıvanda konsulluğun açılması barədə İran XİN-in məktubunu Heydər Əliyevə təqdim etmişdir.

1992-ci ilin iyun ayında Azərbaycanda Xalq Cəbhəsinin hakimiyyətə gəlməsi İranla münasibətlərdə fərqli mərhələnin başlanmasına səbəb olmuşdu. Xalq Cəbhəsinin hakimiyyətdə olduğu bir il tərəflər arasında gərginlik mərhələsi kimi qiymətləndirilir. Lakin həmin dövrdə ikitərəfli münasibətlərin inkişafı istiqamətində müəyyən addımlar da atılmışdır. 1992-ci ilin avqust ayının 5-də Tehranda Azərbaycan səfirliyinin yaradılması barədə qərar qəbul edilmişdir. Elə həmin ay Azərbaycanın xarici işlər nazirinin İrana ilk rəsmi səfəri baş tutmuş və bir sıra mühüm məsələlər – Naxçıvanda İranın, Təbrizdə isə Azərbaycanın baş konsulluqlarının açılması, İrandan Azərbaycana qaz verilməsi, İran ərazisindən keçərək Naxçıvana gediş-gəliş məsələləri barədə razılaşmalar əldə olunmuşdur. 1992-ci il oktyabrın 8-də İran İslam Respublikası ilə iqtisadi, ticarət və humanitar əlaqələrin inkişafı üçün Dövlət Komissiyasının yaradılmışdı.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri Heydər Əliyev 22-26 avqust 1992-ci ildə İran İslam Respublikasına rəsmi səfər etmişdir. Səfər zamanı Heydər Əliyev İran İslam Respublikasının ali dini rəhbəri Ayətulla Seyid Əli Xamneyi, prezident Əli Əkbər Rəfsəncani, Milli Məclisin sədri Natiq Nuri və xarici işlər naziri Əli Əkbər Vilayəti ilə görüşmüşdür. Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası arasında müxtəlif sahələrdə əməkdaşlığa dair 16 maddədən ibarət protokol imzalamışdır. Bağlanmış protokola əsasən, muxtar respublikanın kommunikasiya xətlərinin İran ərazisindən keçirilməsi, bir il ərzində qaz kəmərinin İran hökumətinin vəsaiti hesabına çəkilməsi, ayda 100 ton maye qazın verilməsi kimi həyati vacib məsələlər həll olundu. Oktyabr-noyabr aylarında İran İslam Respublikasından Naxçıvana yardımlar, neft, dizel yanacağı, kömür və ərzaq məhsulları göndərildi. Dekabrın 3-də Şahtaxtı–Poldəşt arasında üzən körpü istifadəyə verildi. Həmin gün İrandan Naxçıvana təqribən 30 meqavat gücündə elektrik enerjisinin verilməsinə başlanıldı. İranla Naxçıvan arasında Poldəşt və Culfada müştərək bazarlar açıldı. Heydər Əliyevin gərgin əməyi, diplomatik fəaliyyəti sayəsində Naxçıvan Muxtar Respublikasının Ermənistan tərəfindən yaradılan nəqliyyat, enerji blokadası yarıldı.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında İranın ilk vasitəçilik təşəbbüsü 1992-ci ilin fevral ayına təsadüf etmişdir. Həmin vaxt İranın xarici işlər naziri Əli Əkbər Vilayəti Bakıya, İrəvana və Qarabağ bölgəsinə səfərlər etmiş və tərəflər arasında atəşkəsin əldə olunmasına dair səylər göstərmişdi. Lakin fevralın 25-dən 26-na keçən gecə ermənilərin Xocalı soyqırımını törətməsi,

mayın 8-də Tehranda Azərbaycanla Ermənistan rəhbərləri arasında danışıqlar aparılan zaman Şuşa şəhərinin Ermənistan ordusu tərəfindən işğalı İran tərəfinin vasitəçilik missiyasına son qoydu.

1993-cü ilin iyun ayında Azərbaycanda yenidən hakimiyyətə gələn Heydər Əliyev İranla münasibətlərdə yeni mərhələnin başlanğıcını qoydu. 1993-cü il sentyabrın 6-da İran İslam Respublikasının Azərbaycan Respublikasına humanitar yardımı haqqında protokol imzalandı. İranın "Hilal Əhmər" (Qırmızı Aypara) təşkilatı həmin ilin sentyabrında Azərbaycanın cənub bölgəsində məcburi köçkünlər üçün 7 çadır düşərgəsi qurmuşdu. Bununla yanaşı, İran tərəfi hərbi əməliyyatlarda yaralanmış Azərbaycan əsgər və zabitlərinin Tehran, Rəşt, Təbriz, Astara və s. şəhərlərdəki xəstəxanalarda müalicəsinə şərait yaratmışdı.

1993-cü il oktyabrın 26-28-də İİR Prezidenti Əli Əkbər Haşimi-Rəfsəncaninin başçılıq etdiyi İran İslam Respublikasının nümayəndə heyəti Bakıya rəsmi səfər etdi. Üç gün davam edən səfərin nəticəsi olaraq "Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında dostluq və qardaşlıq münasibətlərinin prinsipləri haqqında" 22 maddəlik memorandum imzalandı. Səfər zamanı siyasi, ticarət, iqtisadi, elmi-texniki, mədəni və humanitar əlaqələrə dair 14 sənədin imzalanması iki ölkə arasındakı münasibətlərdə əvvəlki illərdə yol verilmiş soyuqluğun aradan qaldırılmasında, münasibətlərin normal inkişaf etdirilməsi üçün zəmin yaradılmasında əsaslı rol oynamışdı.



Münasibətlərin konstruktiv və dinamik məcraya salınması yönündə bu addımın davamı olaraq 1994-cü il 29 iyun - 2 iyul tarixlərində Heydər Əliyevin başçılığı ilə Azərbaycan nümayəndə heyəti İrana rəsmi səfər etdi. Səfər gedişində siyasi, iqtisadi, elmi-mədəni əməkdaşlığa dair 7 sənəd, o cümlədən Azərbaycanla İran arasında dostluq münasibətlərinin inkişafına dair 13 maddəlik bəyanat imzalandı. Həmin bəyanatda Ermənistanın Azərbaycana qarşı təcavüzü açıq şəkildə pislənmiş, Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğu təsdiq edilmişdi.

1994-cü il sentyabrın 20-də imzalanan "Əsrin müqaviləsi"ndən, Azərbaycanın Qərb şirkətləri və qurumları ilə əlaqələrinin genişlənməsindən sonra İran tərəfi Ermənistanla münasibətlərini daha yüksək səviyyəyə qaldırmağa başlamış, beləliklə, din amili ilə yanaşı, Ermənistan faktorundan da Azərbaycanı öz yolundan çəkindirmək üçün təzyiq vasitəsi kimi istifadə etməyə cəhd göstərmişdi. Azərbaycan hakimiyyətinin bu xoşməramlı addımına baxmayaraq, İran tərəfinin narazılığı nəzərə çarpırdı. Bu narazılıq Xəzər dənizinin hüquqi statusu barədə müddəa vasitəsilə də ifadə olunurdu. Lakin İran nümayəndələri ilə apardığı çoxsaylı danışıqlarda Heydər Əliyevin siyasi və diplomatik məharəti ixtilafın kəskinləşməsinə imkan vermədi. 14 dekabr 1994-cü ildə Heydər Əliyev Kasablankada İKT-nin Zirvə toplantısında iştirak

edərkən İranın xarici işlər naziri Əli Əkbər Vilayəti ilə də görüşdü. Söhbət zamanı o, İran tərəfinə Azərbaycanın mövqeyini fəal şəkildə dəstəklədiyinə görə təşəkkür etdi.

Prezident Heydər Əliyev 10 fevral 1995-ci il də İranda İslam Respublikasının İslam inqilabının 16-cı ildönümü münasibətilə keçirdiyi tədbirdə də iştirak etmişdir.

Prezident Heydər Əliyev İran İslam Respublikasının Prezidenti Haşimi-Rəfsəncaninin dəvətilə 1996-cı il mayın 12-13-də Sərəxs-Tecən dəmiryolu xəttinin açılış mərasimində iştirak etmək üçün İrana səfər etmişdir. Səfər zamanı Azərbaycan Respublikası və İran İslam Respublikası dövlət başçıları tərəfindən iki ölkə arasındakı münasibətlərin inkişafına dair əməli addımlar atılmışdır. Mayın 13-də Məşhəddə və 15-də Aşqabadda davam edən yüksək səviyyəli danışıqlar zamanı Azərbaycan və İran münasibətlərində öz həllini tapmamış məsələlər nəzərdən keçirilmiş, həmin məsələlərin demək olar ki, əksəriyyəti müsbət həll olunmuşdur.

1996-cı il oktyabrın 28-31-də Azərbaycan Respublikasına rəsmi səfərə gəlmiş İranın birinci vitse-prezidenti Həsən Həbibi ilə Prezident Heydər Əliyev arasında keçirilən görüş zamanı ikitərəfli münasibətlərin, xüsusilə iqtisadi məsələlərin həlli yolları araşdırılmış, həmçinin bir sıra sənədlər imzalanmışdır.

İki ölkə parlamentləri arasında da əlaqələr davam etmişdir. 1996-cı il noyabrın 26-28-də Bakıya işgüzar səfərə gəlmiş İslam Şurası Məclisi Rəyasət Heyətinin üzvü Seyid Rza Əkrəminin başçılıq etdiyi nümayəndə heyəti Prezident Heydər Əliyevlə görüşmüşdür. Bundan əlavə Azərbaycan Respublikası Milli Məclisində keçirilmiş görüşlərdə parlamentlərarası qrupların fəaliyyətinin genişləndirilməsi zəruriliyi qeyd edilmişdir.

Heydər Əliyevin hakimiyyəti dövründə Azərbaycanın İranla təkcə ikitərəfli formatda deyil, İslam Konfransı Təşkilatı (sonralar İslam Əməkdaşlıq Təşkilatı) və İqtisadi Əməkdaşlıq Təşkilatı (EKO) kimi regional qurumlar çərçivəsində də əməkdaşlığının əsası qoyulmuşdur.

1997-ci il mayın 13-14-də Aşqabadda İƏT təşkilatı Zirvə toplantısının keçirildiyi günlər Azərbaycan Prezidenti Heydər Əliyev və İran Prezidenti Haşimi-Rəfsəncani arasında görüş keçirilmişdir.

1997-ci il dekabrın 8-11-də Prezident Heydər Əliyev Tehranda keçirilən İKT-nin VIII Zirvə görüşündə iştirak etmiş, bu zaman İranın Prezidenti S.M.Xatəmi, Ali Rəhbər Ayətullah Xamnei, Məsləhət Şurasının sədri Haşimi-Rəfsəncani və digər yüksək səviyyəli dövlət xadimlərilə keçirdiyi görüşlər nəticəsində ikitərəfli münasibətlər keyfiyyətcə yeni mərhələyə qaldırılmış, ölkələrimiz arasındakı münasibətlərin gələcək inkişafı üçün geniş imkanlar açılmışdır.

1998-ci il avqustun 12-13-də İran İslam Respublikasının Xarici İşlər Naziri Kamal Xərrazinin rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycan Respublikasına rəsmi səfər etmiş, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və başqa rəsmi şəxslərlə görüşlər keçirmişdir. Görüşlər zamanı ikitərəfli münasibətlərin aktual məsələləri, o cümlədən Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsi, neft marşrutlarının optimal variantları, iqtisadi-ticarət əlaqələrinin perspektivləri və digər məsələlər haqqında fikir mübadiləsi aparılmışdır.



1998-ci il dekabrın 21-28-də Azərbaycan Respublikası Milli Məclisinin sədri Murtuz Ələsgərovun başçılıq etdiyi Azərbaycan Parlamentinin nümayəndə heyəti, İİR İslam Şurası Məclisinin sədri Natiq Nurinin dəvətilə İrana səfər etmişdir. Səfər zamanı Milli Məclisin sədri M.Ələsgərov İİR Prezidenti M.Xatəmi, İslam Şurası Məclisinin sədri N.Nuri, Məsləhət Şurasının sədri Haşimi-Rəfsəncani, Tikinti və Şəhərsalma Naziri Ə.Əbdüləlizadə, Xorasan valisi Mehrəlizadə, Şərqi Azərbaycan valisi Y.Məhəmmədzadə ilə görüşmüşdür. Görüşlər zamanı ölkələrimiz arasında siyasi, iqtisadi və mədəni sahələrdə olan əlaqələrin sürətlə inkişaf etdirilməsi zəruriliyi qeyd olunmuş, tərəflər bölgədə və beynəlxalq aləmdə baş verən münaqişələrin sülh yolu ilə həll edilməsi və dövlətlərin ərazi bütövlüyünün qorunması prinsiplərinə tərəfdar olduqlarını bildirmişlər.

1999-cu il iyunun 22-də Şərqi Azərbaycan valisi Yəhya Məhəmmədzadənin başçılıq etdiyi İİR-in nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasına səfər etmişdir. Səfərin nəticəsi olaraq Naxçıvan MR Ali Məclisinin sədri V.Talıbov ilə birlikdə anlaşma protokolu imzalanmışdır. Həmin anlaşma protokolunda ticarəti inkişaf etdirmək, əkinçilik və maldarlıq sahəsində informasiya mübadiləsi aparmaq, yeni körpülər salmaq, Culfa-Naxçıvan yolunu təmir etdirmək və digər tədbirlər nəzərdə tutulmuşdu.

2000-ci il yanvarın 29-da Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Davos Ümumdünya İqtisadi Forumunda iştirak etdiyi zaman İİR-in Xarici İşlər Naziri Kamal Xərrazini qəbul etmişdir. Görüş zamanı hər iki tərəfi maraqlandıran məsələlər müzakirə olunmuşdur.

2000-ci il mayın 15-18-də İran İslam Respublikasının Xarici İşlər Nazirinin müavini Mortəza Sərmədinin başçılıq etdiyi nümayəndə heyəti Azərbaycan Respublikasına rəsmi səfər etmişdir. Nümayəndə heyəti Prezident Heydər Əliyev və başqa rəsmi şəxslər tərəfindən qəbul edilmişdir.

2000-ci il sentyabrın 8-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev BMT-nin millenium Zirvə toplantısında iştirak etdiyi zaman İran İslam Respublikasının Prezidenti S.M.Xatəmi ilə görüş keçirmişdir. Görüşdə Azərbaycan-İran əməkdaşlığının perspektivləri, bölgədə vəziyyət, hər iki ölkəni maraqlandıran bir sıra məsələlər haqqında fikir mübadiləsi aparılmışdır.

23 yanvar 2002-ci ildə Prezident Heydər Əliyev İran İslam Respublikasının Daxili İşlər Naziri Əbdülvahid Musəvi Larini qəbul etmişdir.

23 aprel 2002-ci ildə Prezident Heydər Əliyev Xəzəryanı ölkələrin dövlət başçılarının Aşqabadda keçirilən ilk Zirvə toplantısında İran İslam Respublikasının Prezidenti Seyid Məhəmməd Xatəmi ilə görüşmüşdür.

2002-ci il mayın 18-20-də İrana rəsmi səfər zamanı Heydər Əliyev İran Prezidenti Məhəmməd Xatəmi, dini lider Seyid Əli Xamenei, parlamentin sədri Mehdi Kərrubi, xarici işlər naziri Kamal Xərrazi ilə müfəssəl müzakirələr apardı. Bu səfərin yekununda ikitərəfli münasibətlərin müxtəlif sahələrini əhatə edən 20 sənəd imzalandı. Müzakirələrin nəticəsi olaraq “Azərbaycan Respublikası ilə İran İslam

Respublikası arasında dostluq və əməkdaşlıq münasibətlərinin prinsipləri haqqında müqavilə" imzalandı. 30 maddəlik bu müqavilə 10 il müddətinə imzalanmışdı. Həmin müqaviləyə əsasən, İran Azərbaycanın ərazi bütövlüyünü birmənalı olaraq dəstəkləyirdi.

İran İslam Respublikasının Prezidenti Seyid Məhəmməd Xatəminin 2004-cü ilin avqustunda ölkəmizə rəsmi səfəri zamanı Xəzərin hüquqi statusu istisna olmaqla, münasibətlərin bütün kompleksi üzrə qarşılıqlı razılıq əldə edilmişdi. Məhz bu səfərdən sonra çoxdan həllini gözləyən bir məsələ reallaşdı: 2004-cü il noyabrın 20-də Təbriz şəhərində Azərbaycan Respublikasının Baş konsulluğu fəaliyyətə başladı.

2004-cü il avqustun 5-7-də İran Prezidenti Məhəmməd Xatəminin Azərbaycana rəsmi səfəri Azərbaycanla İran arasında qarşılıq münasibətlərin inkişafında mühüm rol oynadı. Səfər çərçivəsində iqtisadi, nəqliyyat, mədəniyyət, energetika və s. sahələrə dair mühüm sənədlər imzalanmışdır. Xüsusilə energetika və qaz sahəsinə aid olan mübadilə sazişləri Naxçıvan Muxtar Respublikasının elektrik enerjisi və qazla təmin olunması baxımından mühüm əhəmiyyət daşıyır.

2005-ci il yanvarın 24-26-da Azərbaycan Prezidenti İlham Əliyev İrana rəsmi səfəri zamanı İran Prezidenti Məhəmməd Xatəmi, İranın Ali dini rəhbəri Seyid Əli Xamenei, Məsləhət Şurasının sədri Haşimi-Rəfsəncani, o cümlədən digər dövlət və hökumət nümayəndələri ilə geniş müzakirələr aparmışdır. Müzakirələrdə ikitərəfli əlaqələrin bütün səviyyələrdə dərinləşməsi, qarşılıqlı səfərlərin həyata keçirilməsi və hər iki ölkənin qanunverici, icra və məhkəmə orqanları arasında əməkdaşlığın inkişafı yüksək qiymətləndirilmişdir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı BMT-nin və İslam Əməkdaşlıq Təşkilatının müvafiq qətnamələrinin yerinə yetirilməsinin və münaqişənin Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı əsasında həll olunmasının vacibliyi vurğulanmışdır. Bəyan edilmişdir ki, Azərbaycan İranın Avropa-Qafqaz-Asiya beynəlxalq nəqliyyat dəhlizinə (TRASEKA) qoşulmaq niyyətini, İran isə Azərbaycanın Şimal-Cənub nəqliyyat dəhlizinə qoşulması təşəbbüsünü dəstəkləyir. Səfər zamanı sərhədyanı rayonlarda yaşayan vətəndaşların sadələşdirilmiş sərhəd keçidi rejimi, Təhsil və Səhiyyə nazirlikləri arasında əməkdaşlıq, Araz çayının hidroenergetika potensialından birgə istifadə, mülki aviasiya sahəsində əməkdaşlığın inkişafı barədə sazişlər imzalanmışdır.



Həmin ilin sonlarında İranın yeni seçilmiş Prezidenti Mahmud Əhmədinejad İrandan Naxçıvana çəkilmiş qaz kəmərinin açılışında iştirak etmək üçün muxtar respublikaya gəlmişdir. Burada o, Azərbaycan Prezidenti İlham Əliyevlə birgə iki ölkə arasında enerji sahəsində əməkdaşlığa dair bəyannamə imzalamışdır. Qeyd olunan kəmərin istifadəyə verilməsi Naxçıvanda qaz problemini əsaslı şəkildə həll etməklə, ikitərəfli iqtisadi əməkdaşlığın müsbət nəticələrinin təzahürünə çevrilmişdir.

2007-ci il avqustun 21-22-də İran Prezidenti Mahmud Əhmədinejadın ölkəmizə ilk rəsmi səfəri çərçivəsində imzalanmış sənədlər, xüsusilə Azərbaycan və İran prezidentlərinin Birgə Bəyanatı ikitərəfli münasibətlərin və gələcək əməkdaşlığın daha da möhkəmlənməsi üçün böyük zəmin yaratmışdır. Birgə Bəyanatda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ məsələsinə dair xüsusi bənd öz əksini tapmış və münaqişənin beynəlxalq hüquq normaları əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmasının vacibliyi vurğulanmışdır. Bu sənəddə hər iki ölkənin hökumətləri arasında müxtəlif səviyyələrdə və parlament üzvləri arasında mübadilələrin genişləndirilməsi də daxil olmaqla, siyasi dialoqun aparılmasının əhəmiyyəti qeyd edilmişdir. Bəyanatda iki dövlət arasında infrastruktur və nəqliyyat layihələrinin həyata keçirilməsi dəstəklənmiş, Ordubad və Marazad Su Elektrik Stansiyalarının və Culfa (Azərbaycan Respublikası) - Culfa (İran İslam Respublikası) yeni avtomobil yolu körpüsünün tikintisinə dair imzalanmış sənədlər yüksək qiymətləndirilmişdir.

2010-cu il noyabrın l7-də İran Prezidenti Mahmud Əhmədinejadın növbəti dəfə Azərbaycana rəsmi səfəri çərçivəsində iki dövlət arasında enerji və nəqliyyat sahəsində Anlaşma Memorandumu və bir sıra digər sənədlər imzalanmışdır. Memorandumda nəqliyyat sektoru sahəsində Şimal-Cənub dəhlizinin qurulması və bu istiqamətdə əlavə tədbirlərin görülməsi nəzərdə tutulmuş, birgə elektrik güclərinin yaradılması məsələləri öz əksini tapmışdır.

İkitərəfli münasibətlərin inkişafı parlamentlərarası əlaqələri də əhatə etmiş, hər iki ölkənin parlament sədrlərinin qarşılıqlı səfərləri əməkdaşlığın dərinləşməsinə öz töhfəsini vermişdir. Həmçinin Azərbaycan parlamentində İranla dostluq qrupu yaradılmışdır.

2013-cü ildə İranın yeni Prezidenti Həsən Ruhani Azərbaycanla münasibətləri normallaşdırmağı və yüksək səviyyəyə qaldırmağı xarici siyasətin prioriteti elan etmiş və bu sahədə əməli addımlar atmağa başlamışdı.

2014-cü ilin yanvarında Davos İqtisadi Forumunda Həsən Ruhani ilə görüşün nəticəsi olaraq 2014-cü il aprel ayının 9-da Azərbaycan Prezidenti İlham Əliyev İrana rəsmi səfər etmişdir. Səfər çərçivəsində Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi ilə İran İslam Respublikasının İdman və Gənclər Nazirliyi arasında gənclər və idman sahələrində əməkdaşlıq haqqında Anlaşma Memorandumu, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi ilə İran İslam Respublikasının Daxili İşlər Nazirliyi arasında fövqəladə halların idarə edilməsi sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu, Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında “Ordubad” və “Marazad” Su Elektrik Stansiyalarının tikintisi və istismarı haqqında Saziş və digər sənədlər imzalanmışdır.

2014-cü ilin noyabr ayında İran Prezidenti Həsən Ruhaninin Azərbaycana rəsmi səfəri ilə iki dövlət arasında münasibətlərin inkişafına yeni təkan verildi. Səfər zamanı iqtisadi sahədə bir sıra sənədlərlə yanaşı, “Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında dostluq və əməkdaşlıq haqqında Birgə Bəyannamə” imzalanmışdır. Dövlətlərarası münasibətlər baxımından çox mühüm sənəd olan bu bəyannamədə tərəflər öz ərazisində bir-birinin dövlət suverenliyi və ərazi bütövlüyü əleyhinə yönələn fəaliyyətə imkan verməyəcəklərini bir daha təsdiq etdilər. İran Prezidentinin səfəri çərçivəsində Azərbaycan– İran Biznes Forumu keçirildi.

Azərbaycan prezidentinin 2014-cü ilin aprelində İrana səfəri nəticəsində uzun fasilədən sonra Azərbaycanla İran arasında iqtisadi, ticarət və humanitar sahələr üzrə Dövlət Komissiyasının fəaliyyəti bərpa olunmuş, həm Bakıda, həm də Tehranda mütəmadi görüşlər keçirilmişdir. Bu görüşlər qarşılıqlı investisiyalara, müştərək müəssisələrin yaradılmasına və ən başlıcası, iki ölkə arasında mal mübadiləsinin ciddi şəkildə artımına təkan vermişdir.

2016-cı il fevral ayının 23-də Azərbaycan Prezidenti İlham Əliyevin İrana rəsmi səfəri zamanı Azərbaycanın və İranın dövlət başçıları arasında həm təkbətək, həm də geniş tərkibdə keçirilən görüşlərdə iki dövlət arasındakı siyasi, iqtisadi, mədəni və digər sahələrə aid məsələlər müzakirə olunmuşdur. Həmin görüşlərdə Azərbaycan və İran arasında tranzit daşımaları, o cümlədən Şimal-Cənub nəqliyyat dəhlizi ilə bağlı əməkdaşlıq haqqında fikir mübadiləsi aparılmış, 2016-cı ilin sonunadək Astara-Astara dəmir yolu xəttinin birləşdirilməsi barədə razılığa gəlinmişdir. Səfər çərçivəsində Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında fövqəladə halların nəticələrinin aradan qaldırılması, məhdudlaşdırılması və təsirinin azaldılması sahəsində əməkdaşlıq haqqında Saziş, Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında gömrük məsələlərində qarşılıqlı inzibati yardım haqqında Saziş, Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında baytarlıq və heyvan sağlamlığı sahəsində əməkdaşlıq haqqında Saziş, Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında elektrik enerjisinin satışı haqqında Çərçivə Sazişi və digər sənədlər imzalanmışdır.

Bu sənədlər içərisində iki ölkənin dəmir yollarının birləşdirilməsi barədə əldə edilmiş razılaşma xüsusi əhəmiyyət daşıyır. Belə ki, bu, Şimal-Cənub nəqliyyat dəhlizinin yaradılması baxımından həlledici əhəmiyyət kəsb edir.

2016-cı il aprelin 20-də Azərbaycan və İran dəmiryollarının əlaqələndirilməsi haqqında Hökumətlərarası Çərçivə Sazişinə uyğun olaraq, Astara çayı üzərində dəmir yolu körpüsünün təməli qoyulmuşdur.

Hazırda İran və Azərbaycan iki regional üçlükdə təmsil olunurlar: Azərbaycan-İran-Türkiyə və Azərbaycan-İran-Rusiya. Azərbaycan, İran və Türkiyə xarici işlər nazirləri arasında mütəmadi görüşlər keçirilməsi haqqında ilk razılaşma 2010-cu ildə İstanbulda keçirilən İƏT-in sammitində əldə edilmişdir. 2011-ci ildən mütəmadi olaraq keçirilən üçtərəfli görüşlərdə xarici işlər nazirləri viza rejiminin sadələşdirilməsi, xalqlar arasında təmasların genişləndirilməsi, təhlükəsizlik və beynəlxalq təşkilatlarda əməkdaşlığın artırılması, birgə mədəni proqramların təşkili, üç ölkənin təhlükəsizlik və kəşfiyyat təşkilatları arasında terrorçuluq, mütəşəkkil cinayətkarlıq, silah və narkotik maddə qaçaqmalçılığı, insan alveri, habelə miqrant qaçaqçılığı ilə mübarizə sahəsində əməkdaşlığa dair bəyannamələr qəbul etmişlər. İran öz məhsullarını dünya bazarına çıxarmaq üçün Azərbaycan və Türkiyənin enerji və nəqliyyat xətlərinə dair birgə layihələrində iştirak etməklə üçtərəfli iqtisadi əməkdaşlığı daha da genişləndirə bilər.

Azərbaycan-İran-Rusiya üçtərəfli əməkdaşlığı çərçivəsində xarici işlər nazirləri arasında ilk üçtərəfli görüş 2016-ci il aprelin 7-də Bakıda keçirilmiş və nazirlər üç ölkənin prezidentlərinin görüşünü razılaşdırmışlar. Nəticədə 2016-cı il avqustun 8-də Bakıda üç ölkənin prezidentləri İlham Əliyev, Həsən Ruhani və Vladimir Putin arasında ilk görüş keçirilmiş, ikinci iclas isə 2017-ci il noyabrın 1-də Tehranda keçirilmişdir. Bakı görüşünün nəticəsi olaraq, üçtərəfli əməkdaşlığa dair bəyannamə imzalanmışdır. Bəyannamə üçtərəfli çərçivədə mədəniyyət, iqtisadiyyat, təhlükəsizlik, nəqliyyat, enerji sahələrində və regional məsələlərdə qarşılıqlı maraqlara uyğun əməkdaşlığı dəstəkləyir.

Azərbaycan və İran arasında 2016-cı il 23 fevral tarixində imzalanmış “Xudafərin” və “Qız Qalası”, eləcə də “Ordubad” və “Marazad” sazişləri hər iki tərəfdən qüvvəyə minib.

2016-cı ildə Neftçala Sənaye Zonasında birgə avtomobil istehsalı zavodunun, 2017-ci ilin yanvarında isə Pirallahı Sənaye Parkında Azərbaycan-İran birgə layihəsi olan əczaçılıq zavodunun təməli qoyulub.

Azərbaycan və İran arasında iqtisadi, nəqliyyat və turizm sahələrində əməkdaşlığın davamlı inkişafına töhfə verəcək Naxçıvan-Culfa-Təbriz-Tehran-Məşhəd dəmir yolu ilə sərnişin qatarı işə düşüb.

Şimal-Cənub nəqliyyat dəhlizi ilə yanaşı, Azərbaycan Şərq-Qərb nəqliyyat dəhlizinin də əhəmiyyətli tranzit ölkəsidir, bu da İrana öz məhsullarını Avropa bazarına ixrac etmək imkanı yaradır.

Azərbaycan-İran siyasi əlaqələrinin inkişafı baxımından Prezident Həsən Ruhaninin 2018-ci il martın 28-29-da ölkəmizə rəsmi səfəri xüsusilə əlamətdardır. Həmin səfər zamanı əməkdaşlığa dair 8 yeni sənəd imzalanmış, eləcə də iki ölkə başçısının iştirakı ilə Heydər Əliyev Mərkəzində Azərbaycan-İran biznes forumu keçirilmiş, həmçinin Neftçala Sənaye Məhəlləsində "Azərmaş" ASC və "İran Khodro" şirkəti tərəfindən birgə qurulmuş "Xəzər" avtomobil zavodunun açılışı olmuşdur. Respublikasının Energetika Nazirliyi ilə İran İslam Respublikasının Neft Nazirliyi arasında Xəzər dənizində müvafiq blokların birgə işlənilməsi haqqında Anlaşma Memorandumu" və "Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında İran İslam Respublikası ərazisində Astara-Rəşt dəmir yolu hissəsinin tikintisinin maliyyələşdirilməsi haqqında Saziş" Azərbaycan-İran münasibətlərində siyasi etimadın səviyyəsini və qarşılıqlı maraqlar əsasında səmərəli əməkdaşlığın miqyasını göstərmək baxımından mühüm əhəmiyyət kəsb edir.

Xəzər dənizi Xəzər regionu ölkələrinin xalqlarının iqtisadi inkişafı və rifahına, həmçinin dünya enerji təhlükəsizliyinin təmin olunmasına yönələn bir çox beynəlxalq və regional layihələrin mühüm tərkib hissəsidir. "Xəzər dənizinin hüquqi statusu haqqında" Konvensiyanı 2018-ci il avqustun 12-də Xəzəryanı ölkələrin Aktau şəhərində keçirilən V sammitində Azərbaycan, İran, Qazaxıstan, Rusiya və Türkmənistan prezidentləri imzalamışlar. Bu Konvensiya ilə dənizin suyu, dibi, təki, təbii resursları və onun üzərindəki hava məkanı da daxil olmaqla, Xəzər dənizinin istifadəsinə münasibətdə Xəzər dənizinin sahilində yerləşən dövlətlərin hüquq və öhdəlikləri müəyyən olunur və tənzimlənir.

Bir sıra Azərbaycan şirkətləri İranda fəaliyyət göstərir. Dövlət Xəzər Dəniz Gəmiçiliyinə məxsus olan gəmilərlə Azərbaycandan və Türkmənistandan İran İslam Respublikasına yüklər daşınır. İranın Ənzəli şəhərində Dövlət Xəzər Dəniz Gəmiçiliyinin nümayəndəliyi fəaliyyət göstərir.

"Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında beynəlxalq avtomobil daşımaları haqqında" Sazişin həyata keçirilməsi, eləcə də avtomobil nəqliyyatı sahəsində qarşılıqlı əhəmiyyət kəsb edən məsələlərin müzakirə edilməsi məqsədi ilə iki ölkə arasında bu sahədə Birgə Komissiya yaradılmışdır. Bakı şəhərindən və Azərbaycan Respublikasının digər bölgələrindən Naxçıvan Muxtar Respublikasına və əks istiqamətdə yük daşımaları İran ərazisindən keçməklə həyata keçirilir. Tərəflər arasında əldə olunmuş razılaşmaya əsasən Naxçıvan-Bakı-Naxçıvan marşrutu üzrə sərnişinlərin daşınması həyata keçirilir. Azərbaycan Respublikasından İrana əsas ixrac malları polad yarımfabrikatlar, təbii qaz, yeyinti sənayesinin qalıqları, elektrik enerjisi, texniki məqsədlər üçün bitkilər, qara metallardan digər məmulatlar, ipək, plastik kütlələr və onlardan məmulatlar, İrandan Azərbaycan Respublikasına əsas idxal malları sement klinkerləri, plastik kütlələr, sement, maşın və mexanizmlər, elektrotexniki avadanlıqlar, aparatura, şüşə və ondan hazırlanan məmulatlar, kimya sənayesi məhsulları, qara metallar və onlardan məmulatlar, dənli bitkilər, keramika məmulatları, meyvə-tərəvəz olmuşdur. 2021-ci ildə Azərbaycanın İranla xarici ticarət dövriyyəsi 441 milyon ABŞ dolları təşkil etmişdir ki, bunun 397 milyardı idxalın payına düşür.

Azərbaycanda iqtisadiyyatın müxtəlif sahələrində 1000-dən artıq İran investisiyalı şirkət fəaliyyət göstərir və İran tərəfdən Azərbaycan iqtisadiyyatına ümumilikdə 3,5 milyarda yaxın ABŞ dolları həcmində investisiya yatırılıb.

Azərbaycan Respublikası və İran İslam Respublikasının təyin etdiyi aviasiya şirkətləri - "Azərbaycan Hava Yolları" və "İran Air" Bakı və Tehran şəhərləri arasında uçuşlar həyata keçirir. Bakı şəhərində "İran Air" aviasiya şirkətinin, Tehran şəhərində isə "Azərbaycan Hava Yolları" aviasiya şirkətinin nümayəndəliyi

fəaliyyət göstərir. İki ölkə arasında hava daşımaları haqqında Hökumətlərarası saziş mövcuddur. 2012-ci ildən etibarən Bakı və Təbriz şəhərləri arasında uçuşların həyata keçirilməsinə başlanılmışdır.

Tehran şəhərində Azərbaycan Dövlət Neft Şirkətinin nümayəndəliyi fəaliyyət göstərir. Azərbaycan Dövlət Neft Şirkəti ilə İran Milli Qaz Şirkəti arasında Azərbaycan Respublikasından İrana qazın təchiz olunması üzrə Anlaşma Memorandumu imzalanmışdır.




İki ölkə arasında kənd təsərrüfatı sahəsində müxtəlif istiqamətlər üzrə əməkdaşlıq mövcuddur. Bunlar əsasən kənd təsərrüfatı məhsullarının və toxumlarının istehsalı, bitki xəstəlikləri və ziyanvericilərinə qarşı mübarizə, süni mayalanma üzrə təcrübə mübadiləsi, elmi və tədqiqat məlumatlarının mübadiləsi, mütəxəssis və ekspertlərin hazırlanması, quşçuluq və heyvandarlığın inkişafı, elmi tədqiqatlara əsasən şoran torpaqların optimal istifadəsi, kənd təsərrüfatı sahəsində texnika və avadanlıqların mübadiləsi və s.

Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında münasibətlərdə mədəni əlaqələr xüsusi yer tutur. Bu xüsusilik, heç şübhəsiz, dərin tarixi səbəblər və humanitar bağlılıqlarla şərtlənir. İki ölkə arasında çoxəsrlik siyasi, ictimai, dini, elmi və ədəbi əlaqələr eyni dərəcədə onların hər ikisinə məxsus müştərək mədəniyyətin formalaşmasına gətirib çıxarmışdır. Həmin müştərək irs bu gün təkcə Azərbaycanla İran arasında mədəni sahədə deyil, bütövlükdə ən müxtəlif sahələrdə əməkdaşlıq üçün etibarlı bünövrə rolunu oynayır. Hazırkı mərhələdə iki ölkə arasında mədəni əlaqələrin genişləndirilməsinin uğurlu formatı kimi İranda Azərbaycan, Azərbaycanda İran mədəniyyəti günlərinin keçirilməsindən istifadə olunur.

2020-ci ildə 44 gün davam edən İkinci Qarabağ müharibəsi nəticəsində Ermənistanın 1993-cü ildən bəri işğal altında saxladığı Azərbaycanla İran arasındakı 130 kilometrlik dövlət sərhədini tam bərpa edilib. 2021-ci ilin sentyabrında Bakı ilə Tehran arasında münasibətlərdə yaranan gərginlik qısa müddətdə danışıqlar yolu ilə aradan qaldırılıb.

28 noyabr 2021-ci ildə İqtisadi Əməkdaşlıq Təşkilatının Aşqabadda keçirilən 15-ci Zirvə Toplantısı zamanı Prezident İlham Əliyevlə İranın yeni prezidenti Seyid İbrahim Rəisinin görüşündə iki dövlət arasında münasibətlərin yeni yaranan reallıqlar əsasında müzakirəsi aparılmış və əlaqələrin daha da inkişaf etdirilməsinin zəruriliyi bidirilmişdir.

2022-ci ildə İran Azərbaycanın işğaldan azad olunan bölgələrində bərpa layihələrində iştirak etmək niyyətində olduğunu bildirib.

2022-ci il martın 11-də Azərbaycanla İran arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının Bakıda keçirilən 15-ci iclasında Azərbaycanın Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında Anlaşma Memorandumu imzalanıb. Memorandumu Azərbaycan tərəfindən Baş nazirin müavini, komissiyanın Azərbaycandan olan həmsədri Şahin Mustafayev, İran tərəfindən isə İranın yol və şəhərsalma naziri, komissiyanın iranlı həmsədri Rüstəm Qasemi imzalayıb. Memorandumun məqsədi Azərbaycanın

Şərqi Zəngəzur iqtisadi rayonu ilə İran ərazisindən keçməklə Naxçıvan MR arasında yeni dəmir yolu, avtomobil yolu əlaqəsinin, eləcə də rabitə və enerji təminatı xətlərinin yaradılmasından ibarətdir. Bu məqsədə nail olmaq üçün Araz çayı üzərində iki avtomobil (piyada keçidi ilə) və iki dəmir yolu olmaqla ümumilikdə dörd körpünün, eləcə də rabitə və enerji təminatı infrastrukturunun tikintisi nəzərdə tutulur.

Azərbaycanın xarici siyasətində İran İslam Respublikası ilə əlaqələr həmişə başlıca yerlərdən birini tutmuşdur. İki ölkə arasında münasibətlərin 30 illik tarixində eniş-yoxuşlar, fərqli yanaşmalar, hətta gərginlik dövrləri də olmuşdur. Son dövrdə İranın Azərbaycana qarşı qərəzli münasibəti, 44 günlük İkinci Qarabağ müharibəsi nəticəsində Azərbaycan, Ermənistan və Rusiya arasında imzalanan 2020-ci il 10 noyabr Bəyanatının 9-cu maddəsində Azərbaycanın qərb regionu ilə Naxçıvan Muxtar Respublikası arasında Zəngəzur dəhlizinin açılması qərarlaşdırılmışdır. Lakin İranın bunu özünün "qırmızı xətti" hesab etməsi, Qafan şəhərində tələsik konsulluq açması, Azərbaycanla sərhəddə hərbi təlimlər keçirməsi Azərbaycanı adekvat addımlar atmağa məcbur etmişdir. İran ərazisində yaşayan bir ovuc erməni azlığına ana dillərində təhsil hüququ tanındığı halda, 30 milyondan artıq azərbaycanlı əhalinin ana dilində təhsil hüququnun əllərindən alınması Azərbaycan dövlətini ciddi narahat edir. Bu narazılıqlar dövlət başçısı tərəfindən dəfələrlə ifadə edilməsinə baxmayaraq, İran tərəfi Azərbaycana qarşı qərəzli siyasətini davam etdirir.

27 yanvar 2023-cü ildə Bakı vaxtı ilə səhər saat 8:30 radələrində Azərbaycan Respublikasının İrandakı səfirliyinə qarşı silahlı terror hücumu olub. Terror aktı nəticəsində səfirliyin mühafizə xidmətinin rəhbəri Orxan Əsgərov şəhid olub və iki nəfər yaralanıb. Azərbaycanın İrandakı səfirliyinə edilən hücum BMT, NATO, Avropa İttifaqı, Türk Dövlətləri Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq təşkilatlar tərəfindən qınanmışdır.

Hazırda Azərbaycanla İran arasında diplomatik münasibətlərin gərginləşməsinin yeganə təqsirkarı mövcud İran rejimidir və bu yanlışlıqdan geri dönülməsi ilk öncə İran dövlətinin xeyirinədir.